UOT 37.01

***Pərvinə Mahir qızı Qədimova***
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# İNTEQRASİYA VƏ İNTEQRATİVLİK PEDAQOJİ ANLAYIŞLAR KİMİ: MAHİYYƏTİ VƏ İFADƏ FORMALARI

***Первина Махир гызы Гадимова***
*докторант по подготовке доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ИНТЕГРАЦИЯ И ИНТЕГРАТИВНОСТЬ КАК ПЕДАГОГИЧЕСКИЕ КОНЦЕПЦИИ: СУЩНОСТЬ И ФОРМА ВЫРАЖЕНИЯ

***Pervina Mahir Gadimova***
*doctoral student of the İnstitute of Education of the Rupublic of Azerbaijan*

# INTEGRATION AND INTEGRATIVITY AS PEDOGAGICAL UNDERSTANDING: ESSENCE AND FORMS OF EXPRESSION

**Xülasə**: Şagirdlərin geniş dünyagörüşə malik bir şəxsiyyət kimi formalaşması elm və təhsilin hansı səviyyədə yaxınlaşması ilə şərtlənir. Müasir mərhələdə elmin çoxsahəli inkişafı, informasiya bolluğu bu əlaqələrin qurulmasını pedaqoji tədqiqatların əsas obyektinə çevirmişdir. İnteqrasiya və inteqrativlik anlayışları bu prosesin qanunauyğun nəticəsi kimi yaranmışdır. Əgər inteqrasiya bu qarşılıqlı əlaqəni ifadə edən proses və ya strategiyadırsa, inteqrativlik çoxşaxəli şəkildə özünü göstərən prosesin istinad etdiyi pedaqoji prinsipdir.

***Açar sözlər:*** *inteqrasiya, inteqrativlik, standart, anlayış, pedaqoji yanaşma, prinsip, strategiya.*

**Резюме:** Формирование учащихся как личности с широким мировоззрением зависит от уровня науки и образования. Многогранно развитие науки на современном этапе, изобилие информации превратили установление этих отношений в основной объект педагогических исследований. Интеграция и интегративность стали законным результатом этого процесса. Если интеграция представляет собой процесс или стратегию, взаимосвязь, то интегративность является педагогическим принципом, основанном на многомерном процессе.

***Ключевые слова:*** *интеграция, интегративность, стандарт, концепция, педагогический подход, принцип, стратегия.*

**Summary:** Formalion of students as a personality with great world view is determined with the level of science and education closeness. In modern period development of science and information made the formation of these relations the object of pedogogical investigations. Integration and integrativity are the results of this process. If integration is the strategy or the process showing this relation, integrativity is the pedagogical principle on which this multilateral process refers.

***Keywords:*** *integration, integrativity, standard, concept, pedagogical approach, principle, strategy.*

**Məsələnin qoyuluşu**. Pedaqogika elmi son dövrlərdə yeni islahatlarla zənginləşməkdədir. Bu anlayışların obyektiv şərhi irəli sürülən ideyaların düzgün açıqlanmasına, məzmun dolğunluğuna şərait yaradır.

**İşin məqsədi** inteqrasiya və inteqrativlik anlayışlarının pedaqoji tədqiqatlarda araşdırılma səviyyəsini təhlilə cəlb edib, onların mahiyyətcə açıqlanmasında özünü göstərən ziddiyyətli məqamları müəyyənləşdirmək və dəqiq, obyektiv şərhinə nail olmaqdır.

Təhsil sahəsində məqsədyönlü şəkildə aparılan bütün islahatlar dövlətin intellektual bazasını gücləndirməyə, onun hərtərəfli inkişafını sürətləndirməyə təsiredici təkan verir. Qabaqcıl dünya ölkələrinin təcrübəsində özünü doğrulmuş bu baxış Azərbaycan Respublikasında təhsil siyasətinin ana xəttini təşkil etməklə onun məzmun və struktur baxımından modernləşməsinə zəmin yaratmışdır. XXI əsrin ilk onilliyindən davamlı formada həyata keçirilən bu yeniləşmə prosesi Kurikulum islahatı adı altında ümumtəhsil məktəblərindən başlamış və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd edildiyi kimi, "səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması" 5 əsas strateji hədəf sırasında ilkin olaraq götürülmüşdür (2, s. 14). Beləliklə, təhsil quruculuğunda məzmun amilinin həlledici əhəmiyyət kəsb etdiyi daha vacib istiqamət kimi önə çəkilmişdir.

Pedaqoji tədqiqatlar göstərir ki, şagird şəxsiyyətinin formalaşması təlim prosesində şagirdlərə aşılanan məzmunun, yəni bilik, bacarıq, dəyər və səriştələrin keyfiyyətindən daha çox asılıdır. Fənlər vasitəsilə reallaşdırılan məzmun isə dövrün baxışlarına uyğun didaktik prinsiplərə istinadən müəyyənləşdirilir. Müasir mütərəqqi ideyalar əsasında işlənilən "Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədində belə bir yanaşma mühüm şərt kimi nəzərə alınaraq göstərilir: "Ümumi təhsilin məzmunu fərdin, cəmiyyətin, dövlətin maraq və tələbatlarını, milli və ümumbəşəri dəyərləri əks etdirməklə humanistlik, dünyəvilik, varislik, inteqrativlik prinsipləri əsasında müəyyən edilir" (22, 117). Göründüyü kimi, ölkəmizdə ümumi təhsilin məzmunca əsaslı şəkildə yenilənməsində istinad olunan başlıca prinsiplərdən biri inteqrativlikdir.

Bir pedaqoji anlayış kimi inteqrativlik prinsipi "inteqrasiya" məfhumunun açıqlanması ilə birbaşa əlaqəlidir. Hər iki termin eyni mənşəli olub, "tam" mənasını ifadə edən latın mənşəli "integer" (16, s. 70) kökündən törəmişdir. Bununla belə, onlar arasında incə məna fərqi var.

Bir anlayış olaraq keçən əsrdə pedaqogika elminə gətirilməsinə baxmayaraq (16, s. 70), təhsildə inteqrasiya ideyası klassik pedaqoqların əsərlərində bu və ya digər şəkildə öz əksini tapmışdır. Belə ki, XVI əsrin böyük pedaqoqu Y.A. Komenski fənlərin inteqrasiyasının mühüm təlimi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, "Böyük didaktika" əsərinin "Ən qısa təlimin əsasları" adlanan XIX fəslində fikrini yığcam şəkildə belə ifadə edir: "Qarşılıqlı olan hər bir şey bu əlaqədə də tədris edilməlidir" (15, 155). C. Lokk, İ.H. Pestalotsi, İ.H. Herbart, K.D. Uşinski kimi klassik pedaqoqların əsərlərində də təlim və tərbiyədə inteqrasiyanın gözlənilməsi ideyası vacib bilinmişdir (19, 5). Xüsusilə K.D. Uşinskinin pedaqoji baxışlarında bu ideya daha qabarıq əks olunmuşdur. O, ibtidai siniflərdə təlimin məzmunu ilə bağlı araşdırmalarında fənlərin qarşılıqlı əlaqəsini bir tələb kimi irəli sürmüş və hansı təlimi nəticələrin əldə olunmasına imkanlar açdığını şərh etmişdir. "Uşağa öyrənməyi öyrətmək" ana dili müəlliminin vəzifələrindən biri kimi qarşıya qoyan böyük didakt onların təfəkkür və nitqində məntiqiliyi inkişaf etdirmək üçün dilin təbiət hadisələri ilə qarşılıqlı əlaqədə tədrisini olduqca faydalı sayaraq yazır: "Təbiətin məntiqi uşaqların anlaq səviyyəsinə ən çox uyğun olan əyani və inkar edilməz məntiqdir. Hər bir yeni əşya mühakiməni müqayisələr vasitəsilə təmrin etdirmək, artıq, kəsb edilmiş sahəyə yeni anlayışlar daxil etmək, öyrənilmiş növləri bir cinsdə birləşdirmək üçün imkan verir. Hər bir fiziki hadisə də yeni uşaq məntiqi üçün çox gözəl təmrindir" (21, 134). Məhz buna görə də alimin pedaqoji irsini müasirlik baxımından təhlilə cəlb edən E.D. Dneprov belə bir nəticəyə gəlir ki, K.D. Uşinskinin ibtidai siniflərdə təlimin məzmununu müəyyənləşdirərkən çıxış etdiyi əsas ideyalardan biri uşağın ətraf aləmlə tanışlığına yönəlmiş inteqral kursun yaradılmasıdır (10, 124).

XX əsrin əvvəllərindən başlayaraq Amerika Birləşmiş Ştatlarında və Qərbi Avropa ölkələrində "inteqrativ kurikulum" anlayışı geniş təhsil sisteminin həlledici komponentlərindən birinə çevrilir (12, 26-27). C. Dyuinin proqressiv təhsil ideyasından rişələnən bu baxışlarda aşağıdakı fikirlərə daha çox önəm verilir:

- "inteqrativ kurikulum təhsil yanaşması olub, şagirdləri həyatı boyu öyrənməyə hazırlayır";
- təhsilə ayrı-ayrı fənlərin tədrisi kimi deyil, "həyatın tələb etdiyi zəruri qabiliyyətlərin inkişaf etdirilməsi prosesi kimi baxılmalıdır" (12, 24).

Zaman-zaman təkmilləşən bu baxışların nəticəsidir ki, artıq həmin ölkələrdə inteqrasiya təhsilin əsas strategiyasiyası kimi formalaşmaqdadır. Belə ki, şagirdlərin təlim maraqlarını gücləndirmək, nəzəriyyə ilə praktikanın, elmlə təcrübənin, məktəblə real həyatın əlaqəsini daha da yaxınlaşdırmaq, möhkəmləndirmək məqsədilə konkret elm sahəsi ilə bağlı ayrı-ayrı fənlərin tədrisinə deyil, bir neçə elmin qarşılıqlı əlaqəsi əsasında yaradılan transdisçiplinar (fənnüstü, yaxud fəndən fənnə keçid) mahiyyət daşıyan fənlərin tədrisinə keçilməkdədir.

Təhsildə inteqrasiya prosesinin intensiv və çoxşaxəli formada təşkili ideyası rus və Azərbaycan pedaqoqlarının tədqiqatlarında da geniş yer almışdır. Doğrudur, uzun müddət sovet pedaqogikasında ənənəvi qaydada “fənlərarası əlaqə” anlayışından istifadə olunmuş və yalnız XX əsrin 80-ci illərində pedaqogika elmində, təhsil və tərbiyə sahəsində inteqrativ proseslərə həsr olunmuş elmi əsərlər toplusunun nəşrindən sonra “inteqrasiya” termini gündəmə gətirilmişdir (13). Həmin dövrdə Y.İ. Dik, A.A. Pincki və V.V. Usanovun birgə yazdıqları məqalədə qohum, tədqiqat obyektləri yaxın və ya uyğun gələn, ümumi qanunauyğunluqları ilə seçilən tədris fənlərinin inteqrasiyası fikri bu problemin daha əsaslı və dərindən işlənilməsi üçün yeni ideyalara təkan verdi (9).

Bu baxımdan pedaqoji nəzəriyyə və praktikada inteqrasiya proseslərini daha geniş aspektdə araşdıran V.S. Bezrukovanın gəldiyi nəticələr xüsusilə əhəmiyyətlidir. Araşdırıcının fikrincə, pedaqoji inteqrasiya:

- bilikləri hər hansı bir ideya ətrafında tamamlanmış məntiqi sistemdə cəmləşdirir, yeni tələblər əsasında nizamlayır; bütün imkan, bacarıq və tələbatlar nəzərə alınmaqla dərketməni genişləndirir, onun terminoloji təsvirini zənginləşdirir;
- nəzəriyyə və praktikanı inkişafetdirici bir prinsip kimi aparıcı ideya olub, elmi və təcrübi fəaliyyətdə daha yüksək nəticələrin gerçəkləşdirilməsini təmin edir;
- bir proses kimi obyektlər arasında qurulmuş birbaşa əlaqə olub, gözlənilən nəticələrə uyğun yeni bitkin sistemin yaradılmasıdır;
- nəhayət, nəticə kimi bir-biri ilə qarşılıqlı əlaqəyə girən obyektlərin qazandığı formadır (4, 26- 31).

Müəllif bir prinsip kimi onun reallaşdırılması ilə bağlı 3 sadə qaydanı açıqlayır.

Birinci qayda: inteqrasiya obyektlərini müəyyənləşdirin.

İkinci qayda: seçilmiş obyektlərin inteqrasiyaya uyğun və uyğun gəlməyən faktorlarını müəyyənləşdirin.

Üçüncü qayda: təhsil sistemi iştirakçılarının imkan və xüsusiyyətlərini nəzərə almaqla gözlənilən nəticələri formalaşdırın (4, 29).

Göstərilənlərdən aydın olur ki, V.S. Bezrukova pedaqoji inteqrasiyaya həm prinsip, həm proses, həm də forma kimi yanaşır.

Bu istiqamətdə ardıcıl tədqiqatlar aparan A.Y. Danilyuk təhsildə inteqrasiyanı didaktik prinsip keyfiyyətində araşdırmaqla onu təlim və tərbiyədə məqsəd və məzmunu, forma və metodları, vasitə və texnologiyaları müəyyənləşdirən mühüm yanaşma kimi dəyərləndirir (7). O, “Təhsildə inteqrasiya nəzəriyyəsi” adlı monoqrafiyasında inteqrasiya anlayışının mahiyyətini belə açıqlayır: “İnteqrasiya – məlumatların bir tədris dilindən digərinə ardıcıllıqla ötürülməsinin təmin edilməsi prosesidir ki, biliklərin mənimsənilməsi, anlayışların formalaşdırılması, şəxsi və mədəni fikirlərin meydana gəlməsi baş verir” (8, 232). V.N. Klepikov isə inteqrasiyanı bu şəkildə şərh edir: “İnteqrasiya – bir neçə fənn dilinin obraz, məcaz və simvollar əsasında qovuşma prosesidir ki, onun nəticəsində fərdi fikir və dəyərlər yaranır. Təhsilin əsas məqsədlərindən biri informasiyanın əldə edilməsi deyil, onun sistemləşdirilməsi və inteqrasiya edilməsi mexanizminin yaradılmasıdır” (14, 49-50).

İnteqrasiyanın fənlərarası və fəndaxili formalarda ifadə olunması fikrini dəstəkləyən T.Q. Braje isə sistemin formal əlamətlər əsasında deyil, mahiyyətcə yaxınlaşma əsasında yaradılmasını önə çəkir (5, 147).

İnteqrasiya Azərbaycan təhsilinin prioritet problemlərindən biri kimi yalnız son dövrlərdə aktuallıq qazanmış və ciddi tədqiqatların aparıcı mövzusuna çevrilmişdir. A. Süleymanova “İnteqrasiya təhsilin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi” məqaləsində “İnteqrasiya nədir?” sualını qoyaraq onu belə cavablandırır: “İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə və asılılığı dərinləşdirməyə xidmət edir. İnteqrasiyanın köməyi ilə şagirdlər biliklər arasında qarşılıqlı əlaqəni başa düşür və

həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə edir” (20, 120). Müəllifə görə, şagirdlərdə ətraf aləm haqqında tam təsəvvürün yaradılmasında inteqrasiya məqsəddirsə, fənn üzrə biliklərin əlaqələndirilməsi üçün ümumi təsəvvürlərin yaradılmasına xidmətdə isə vasitədir (20, 121).

N. Mehdiyevanın da bu pedaqoji anlayışla bağlı mülahizələri maraq doğurur: “İnteqrasiya müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədi ilə təlimi bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir” (17, s. 58). Müəllif pedaqoji tədqiqatlarda inteqrasiyaya bir məqsəd deyil, strategiya kimi yanaşıldığını, ondan dərsdə vasitə kimi istifadə edildiyini də nəzərə çarpdırır ( 17, 59).

F. Rüstəmov milli kurikulumların hazırlanması prinsiplərindən danışarkən, qısa da olsa, inteqrativlikdən ayrıca bir prinsip kimi bəhs etməklə onun fənlərarası və fəndaxili əlaqədə, üfüqi və şaquli ifadə olunduğunu qeyd edir (18, s. 42). Ə. Abbasov şəxsiyyətyönlü yeni kurikulumları səciyyələndirərkən onların inteqrativ məzmunu ilə seçildiyini göstərir. Alimin fikrincə, kurikulumların inteqrativ məzmunda hazırlanması aşağıdakı cəhətlərə görə onların keyfiyyətinin yüksəlməsinə təsir göstərir:

“Birinci, fənlərin inteqrasiyası onların saylarının azalması ilə nəticələnir. Məzmunca yaxın fənlər sintez edilir.

İkinci, fənlərin inteqrasiyası həftəlik saatların minimum səviyyəyə endirilməsinə imkan yaradır. Bu isə təlim yükünün – məşğələlərin azalmasına gətirib çıxarır.

Üçüncüsü, şagirdlərin həyati əhəmiyyəti olan bilik, bacarıq və vərdişlər qazanmalarına, onların şəxsiyyətini formalaşması üçün ən zəruri praktik işlərin həyata keçirilməsinə imkan yaranır” (1, 19).

Tanınmış pedaqoq fənn kurikulumlarını xarakterizə edərkən onların inteqrativ mahiyyət daşıdığını şagird şəxsiyyətini formalaşmasına imkan yaratması, həyati bacarıqlar aşılaması və davamlı fəaliyyət üçün hazırlaması ilə əlaqələndirir (1, 35).

Ə. Abbasovun A. Əhmədov və T. Talıbovla birgə yazdığı bir məqalədə isə yeni işlənilən fənn kurikulumlarının məzmununda inteqrasiyanın bir prinsip kimi nəzərə alınmasını təhsilin bütün mərhələlərində potensial əlaqələri tapmaq, onları fəaliyyət müstəvisində reallaşdırmaq imkanı yaratdığını xüsusi vurğulanır. Digər tərəfdən, konseptual sənəd kimi təlimin məzmununu ifadə edən bu kurikulumlarda fəndaxili və fənlərarası inteqrasiyanın əlaqəli standartlar fonunda verilməsini müvafiq dərsliklərin hazırlanmasına bir istiqamət verəcəyi, həmçinin müəllim tərəfindən idarə olunan təlim prosesinin səmərəli və maraqlı qurulması üçün faydalı olacağı qeyd olunur (11, 19).

Buradan belə bir nəticəyə gəlmək olur ki, müəlliflər inteqrasiyanın mövzular ətrafında qurulması deyil, standartlar əsasında təşkili ideyasına üstünlük verirlər ki, bu da Azərbaycan təhsili üçün yeni bir ideyadır.

Təhsildə inteqrasiya probleminə G. Balayevanın “İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri” adlı kitabında da toxunulmuşdur. Müəllif inteqrasiyanı mühüm təhsil prinsiplərindən hesab edir və müasir yanaşmada biliklərin daha dərindən və keyfiyyətcə yeni səviyyədə mənimsənilməsinə şərait yaradığı qənaətinə gələrək, fikirlərini bu axarda davam etdirir: “İnteqrativlik biliyin bütövlükdə cəmiyyətin inkişafını müəyyənləşdirən aparıcı qüvvə kimi real üstünlüyünü təmin etməyə qabildir. Bu prinsipə istinad olunması dünyanın mənzərəsini və cəmiyyətin həyatını bütün tamlığı ilə şagirdlərə göstərir” (3, s. 76). O, müasir pedaqoji sistemlərin formalaşmasında inteqrasiyanın prinsip kimi, şagirdin fərd, şəxsiyyət və vətəndaş kimi inkişafında isə vasitə kimi çıxış etdiyini də göstərir (3, 76-77).

Tanınmış metodist alim V. Qurbanov bu problemi nisbətən geniş aspektdə təhlilə cəlb etmiş, Azərbaycan və rus tədqiqatçılarının pedaqoji inteqrasiyaya verdikləri tərif və şərhlər üzərində dayanmaqla öz münasibətini bildirmişdir. O yazır: “Pedaqoji inteqrasiya – şagirdlərin özlərini inkişafa aparan təhsil sistemi çərçivəsində təlimin məzmunu, forma və metodlarını eynitipli hissələrinin və elementlərinin məqsədyönlü təşkil olunmuş strukturlu əlaqəsidir” (6, s. 16). Müəllifə görə, təlimdə inteqrasiya anlayışı bir məqsəd kimi – şagirdlərdə dünya haqqında təsəvvür yaratmağa, bir təlim üsulu kimi – biliklərin bir-birinə yaxınlaşmasının ümumi bünövrəsi-

nin tapılmasına, elmi təfəkkür üsulu kimi – şagirdlərin inkişafının nəticə göstəricisini müəyyənləşdirməyə xidmət edir (6, 16). Bununla belə, yekun nəticə olaraq, o, inteqrasiyanı daha çox strateji məsələ və məqsəd kimi dəyərləndirir (6, 19).

Beləliklə, gətirilən faktlar göstərir ki, pedaqoji inteqrasiya həm prinsip, həm strategiya, həm proses, həm üsul və vasitə hesab edilmişdir. Bunun başlıca səbəbi inteqrativlik və inteqrasiya anlayışları arasında fərq qoyulmamasından irəli gəlir. Fikrimizcə, əgər inteqrativlik pedaqoji yanaşmadırsa, inteqrasiya bir sistem daxilində hissə və hissəciklərin, komponent və elementlərin tam halında birləşdirilməsi prosesidir. İnteqrativlik "Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)" sənədində göstərildiyi kimi, təlimin məzmununun müəyyənləşdirilməsində istinad olunan bir prinsip, tələbdirsə (22, 117), inteqrasiya bir strategiya, bir texnologiyadır.

İnteqrativlik inteqrasiya prosesinin forma, mərhələ və keyfiyyətini müəyyənləşdirməyə imkan verən ümumiləşmiş pedaqoji baxışdır. Eyni zamanda, inteqrasiya inteqrativliyin mahiyyət göstəricisidir. İnteqrasiya səbəbdirsə, inteqrativlik nəticədir.

Fənlərarası, fəndaxili və fənnüstü (və ya fəndən-fənnə keçid) variantlarda öz ifadə formasını tapan pedaqoji inteqrasiya təhsilin bütün pillə və mərhələlərində aşağı, orta və yüksək səviyyədə reallaşdırıla bilir. Müasir anlamda fənlərarası inteqrasiya fənlərin tədrisində qazanılmış bilik və bacarıqların müvafiq standartlara uyğun uzlaşdırılmasıdırsa, fəndaxili inteqrasiya fənnin məzmunun əks etdirən mövzuların deyil, məzmun xətləri və onları konkretləşdirən alt standartların əlaqələndirilməsidir. Bu uzlaşdırma və ya əlaqə üfüqi və şaquli inteqrasiya şəklində həyata keçirilir. Fənlərarası inteqrasiya üfüqi inteqrasiya, fəndaxili inteqrasiya isə həm üfüqi, həm də şaquli inteqrasiya formalarında aparılır. Məhz buna görə də son dövrlərdə standart əsaslı inteqrasiya anlayışı pedaqoji tədqiqatlarda özünə yer almaqdadır. Kurikulum islahatı ilə əlaqədar fənlərin tədrisində özünü doğruldan bu inteqrasiya forması şagirdlərin təlimə olan maraq dairəsini genişləndirməyə, onları çevik məntiqi və tənqidi düşünməyə, fakt və hadisələri mahiyyətinə görə fərqləndirməyə və ya ümumiləşdirməyə alışdırır. Standart əsaslı inteqrasiya həm də interaktiv təlim metodlarından istifadəyə zəmin yaratmaqla dərsin səmərəli təşkilini təmin edir.

**Tədqiqatın elmi yeniliyi.** Pedaqoji istilahlar kimi inteqrasiya və inteqrativlik anlayışlarının şərhi ilə bağlı müxtəlif yanaşmalar təhlil edilmiş, mahiyyəti açıqlanmış və ifadə formalarında özünü göstərən məqamlara aydınlıq gətirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Bəhs edilən pedaqoji anlayışların yerli-yerində düzgün istifadəsi və bu istiqamətdə aparılan tədqiqatlar üçün zəmin yaradılmış, fənn kurikulumlarında və təlim prosesində inteqrasiyanın hansı forma və istiqamətdə aparılması ilə bağlı müəyyən ümumiləşmiş nəticəyə gəlinmişdir.

**Ədəbiyyat:**


1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətlər // Kurikulum, 2008, № 1
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013, № 5
3. Balayeva G. İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri. Bakı: Elm və təhsil, 2012.
4. Безрукова В. С. Интеграционные процессы в педагогической теории и практике: монография. Екатеринбург: Север, 1994.
5. Браже Т.Г. Интеграция предметов в современной школе // Литература в школе, 1996, № 5
6. Qurbanov V. Azərbaycan dilini tədrisi metodikası. Bakı: Müəllim, 2014.
7. Данилюк А. Я. Учебный предмет как интегрированная система // Педагогика, 1997, № 4
8. Данилюк А. Я. Теория интеграции образования. Ростов-н/Д.: Изд-во Рост. пед. ун-та, 2000.
9. Дик Ю.И., Пинский А.А., Усанов В.В. Интеграция учебных предметов // Советская педагогика, 1987, № 9
10. Днепров Э.Д. Ушинский и современность. Москва: ГУ ВШЭ, 2007.
11. Əhmədov A., Abbasov Ə., Talıbov T. Təhsil kurikulumlarının xarakterik cəhətləri // Kurikulum, 2009, №1
12. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı: Adiloğlu, 2005.

13.Интегративные процессы в педагогической науке и практике коммунистического воспитания и образования. Сборник научных трудов. М.: Изд-во АНП СССР, 1983.

14.Клепиков В. Н. Интеграция гуманитарных и естественно-математических знаний // Педагогика, 2010, № 4

15.Komenski Y. A. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012.

16.Кубасов О.П. Интеграция в образовании: сущностная характеристика // Казанский педагогический журнал, 2008, № 10

17.Mehdiyeva N. Yeni fənn kurikulumları və inteqrasiya // Kurikulum, 2008, №1

18.Rüstəmov F. Ümumi təhsilin milli kurikulumu və onun hazırlanması prinsipləri // Kurikulum, 2008, №1

19.Сухаревская Е.Ю. Интеграция содержания начального образования как предмет освоения учителями в системе повышения квалификации. Автореф. дис. … канд. пед. наук. Ростов-на-Дону, 2006.

20.Süleymanova A. İnteqrasiya təhsilin keyfiyyətinin yüksəldilməsi vasitəsi kimi // Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011.

21.Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.

22.Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) // Kurikulum, 2010, №3

E-mail: pqedimova@mail.ru

**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* A.X. Hacıyev

**Redaksiyaya daxil olub: 03.05.2018**